**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**TURAN MÖVLUD OĞLU TEYMUROV**

# MUXTAR AUEZOVUN "ABAY" ROMANINDA EPİK VÜSƏT VƏ BƏDİİ DETAL

5717.01 – Türk xalqları ədəbiyyatı

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2015**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Arif Əmrah oğlu Məmmədov**<br>filologiya üzrə fəlsəfə doktoru |
| **Rəsmi opponentlər:** | **Əsgər Adil oğlu Rəsulov**<br>filologiya üzrə elmlər doktoru, professor<br><br>**Firuzə Abdulla qızı Ağayeva**<br>filologiya üzrə elmlər doktoru |
| **Aparıcı müəssisə:** | **AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu Türk filologiyası şöbəsi** |

Müdafiə "_21__" _04________ 2015-ci il tarixdə saat __da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyaların müdafiəsini keçirən D.01.131- Dissertasiya Şurasının iclasında keçiriləcək.

**Ünvan:** Az.1143, Bakı, H.Cavid prospekti 115, Akademiya şəhərciyi, Əsas korpus, Nizami adına Ədəbiyyat İnstitutu, Elektron Akt zalı, IV mərtəbə.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat ___________ 2015-ci ildə göndərilmişdir.

| | |
|---|---|
| **Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə elmlər doktoru, professor:** | **İmamverdi Yavər oğlu Həmidov** |

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Türk xalqları ədəbiyyatının səciyyəvi inkişaf meyillərindən biri də ənənələrinin tarixi qədim dövrlərə aid olmasına baxmayaraq, bədii-estetik prinsipləri və poetik sistemi tam formalaşmış epik növün nisbətən gec yaranmasıdır. Əksər türk xalqlarında olduğu kimi, qazax ədəbiyyatında da hekayə, povest və roman XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərindən ədəbi-mədəni həyatın aparıcı janrlarından birinə çevrilməyə başladı. Səciyyəvi cəhətlərdən digəri türk xalqları ədəbiyyatının, o cümlədən qazax ədəbiyyatının əsas inkişaf mərhələsinin əvvəlcə rus imperiyasının, daha sonra isə sovet rejiminin əsarəti dövrünə təsadüf etməsidir. Hər iki cəhət qazax milli ədəbiyyatının inkişafında xüsusi rolu olan Muxtar Auezovun yaradıcılıq axtarışlarında özünü qabarıq şəkildə göstərmişdir.

XX əsr qazax ədəbiyyatının görkəmli nümayəndələrindən biri kimi Muxtar Auezov bütün varlığını və istedadını doğma xalqının ədəbiyyatının, elminin, ictimai-milli azadlıq ideyalarının inkişafına həsr etmiş fədakar şəxsiyyətdir. O, müxtəlif ədəbi növlərdə və janrlarda qələmini sınamış, pedaqoji sahədə fəaliyyət göstərmiş, bədii tərcümə ilə məşğul olmuş, dəyərli elmi araşdırmalar aparmış, ictimai-siyasi və elmi-mədəni həyatda fəal iştirak etmişdir. Yaradıcılığa XX əsrin əvvəllərindən başlayan sənətkar qazax dramaturgiyasının bünövrəsini qoymuş, akademik kimi filologiya elminin inkişafına dəyərli töhfələr vermiş, hekayə, povest və romanları ilə milli nəsrin ideya-məzmun və sənətkarlıq baxımından yetkin səviyyəyə çatmasında əvəzsiz rol oynamışdır.

Zəngin və səmərəli yaradıcılıq yolu keçmiş bu böyük şəxsiyyətin ömür kitabı isə «Abay» romanı olmuşdur. Roman yalnız Qazaxıstanda deyil, Orta Asiyada, keçmiş SSRİ-də və dünyanın bir çox ölkələrində müəllifinə geniş şöhrət qazandırmışdır. Bu əsər XIX əsr qazax ədəbiyyatının qüdrətli söz ustası Abayın həyat və yaradıcılığına həsr olunmuşdur. Romanı yazmamışdan əvvəl müəllif Abayın yaşadığı yerlərə baş çəkmiş, onun əsərlərini toplamış, qohumlarının, yaxınlarının, onu tanıyanların xatirələrini qələmə almışdır. Məhz belə axtarışların sayəsində «Abay» romanı yalnız bədii əsər kimi tanınmamışdır, eyni zamanda tarixi şəxsiyyət kimi bu sənətkarın haqqında ilk dolğun, hərtərəfli məxəzə, mənbəyə çevrilmişdir.

Romanın uzun ömürlüyünü təmin edən, ona milyonların rəğbətini qazandıran cəhətlər sırasında Abayın şəxsiyyətini vurğulamaqla yanaşı, əsərin özünün yüksək sənətkarlıq məziyyətlərini də xüsusi qeyd etmək

lazımdır. Digər maraqlı cəhət isə ondan ibarətdir ki, əsərdə qazax xalqının həyat, düşüncə tərzinə, adət-ənənələrinə, mərasimlərinə və s. kimi özünəməxsusluqlara geniş yer ayrılmışdır. Bütün bunlar romanın xüsusi tədqiqat obyekti kimi götürülməsinə əsas verir. Azərbaycanda M.Auezovun özü, yaradıcılığı, xüsusən də «Abay» romanı haqqında yubiley yazılarını, ayrı-ayrı məqalələri çıxmaq şərti ilə ayrıca tədqiqat əsəri yazılmamışdır. Deyilənlər bir daha göstərir ki, M.Auezovun «Abay» romanının filoloqlarımız tərəfindən tədqiqi mühüm elmi əhəmiyyət kəsb edir.

**Mövzunun tədqiq tarixi.** Azərbaycan ədəbiyyatşünaslığında mövzunun öyrənilməsində bir neçə tərəfi fərqləndirmək mümkündür: birincisi, təfərrüat və detal probleminin müxtəlif alimlər tərəfindən və Azərbaycan ədəbiyyatşünaslığında nəzəri problem kimi ümumi şəkildə öyrənilməsi; ikincisi, Muxtar Auezovun həyat və yaradıcılığının Azərbaycanda, Qazaxıstanda və s. tədqiqi; üçüncüsü, haqqında söhbət gedən əsərin müəllifinin romanının ümumi planda, daha doğrusu, ideya-mövzu və konkret bu problem baxımından araşdırılması.

Rus ədəbiyyatşünaslığında bu problemin araşdırılması sahəsində artıq müəyyən elmi ənənə formalaşmışdır. Bütün mövcud tədqiqatların sadalanmasına xüsusi ehtiyac olmadığı qənaəti ilə onlardan bəzilərini xatırlamaq yerinə düşər. Bu zaman ilk yada düşən E.S.Dobin [1], A.P.Çudakov [2], M.Epşteyn[3] kimi alimlər olur. Rus ədəbiyyatşünaslığında bu problemin araşdırılmasına bir sıra namizədlik dissertasiyaları da həsr edilmişdir.

Milli ədəbiyyatşünaslıqda təfərrüat və detal probleminə bəzi nəzəriyyə dərsliklərində ümumi şəkildə toxunulmuşdur. Ə.Hüseynovun araşdırması[4] publisistikada, A.Məmmədovun məqaləsində [5] isə Azərbaycan klassik ədəbiyyatında təfərrüat və detal məsələsi, eləcə də M.Əliyevin[6] məqaləsində detal tədqiq edilmişdir. K.Vəliyevin[7] məqaləsində isə problem ümumi-nəzəri aspekdə nəzərdən keçirilmişdir.

Qazaxıstanda M.Auezov irsi, o cümlədən «Abay» romanı müəllifin sağlığından başlayaraq sistemli şəkildə tədqiq olunur. Bu sahədə saysız-hesabsız məqalələr, monoqrafiyalar vardır.

---

[1] Добин Е.С. Сюжет и действительность. Ленинград: Советский писатель, 1981, 432 с.
[2] Чудаков А.П. Поэтика Чехова. М., Наука, 1971, 292 с.
[3] Эпштейн М. Знак пробела: О будущем гуманитарных наук. М.: Новое литературное обозрение, 2004. 864 с.
[4] Hüseynov Ə. Sənət yanğısı. Bakı: Yazıçı, 1979, 456 s.
[5] Əmrahoğlu A. Epik sözün bədii gücü. Bakı: Elm, 2000, 212 s.
[6] Əliyev M. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Elm və təhsil, 2012, 458 s.
[7] Vəliyev K. Sözün sehri. Bakı: Yazıçı, 1986, 303 s

Dissertasiyanda sitat verilən elmi araşdırmaları da bura əlavə etsək, ciddi bir auezovşünaslığın mövcudluğundan danışmaq mümkündür[1]. Azərbaycan ədəbiyyatşünaslığında M.Auezovun həyat və yaradıcılığı daha çox ümumi planda və əsasən yubiley münasibəti ilə öyrənilmişdir[2].

M.Auezovun həyat və yaradıcılığı müxtəlif ali məktəb dərsliklərində də əhatə olunmuşdur. Mövcud ədəbiyyatın arasında N.Məmmədovun qazax ədəbiyyatı üzrə metodik vəsaitini də xüsusi qeyd etmək lazımdır[3]. Vəsaitdə M.Auezova xüsusi yer ayrılmış və onun «Abay» romanı ideya-məzmun özünəməxsusluğu işığında təhlil olunmuşdur.

**Tədqiqatın predmeti və obyekti.** Tədqiqatın predmeti Muxtar Auezovun Azərbaycan dilinə tərcümə olunmuş və oxucular tərəfindən rəğbətlə qarşılanmış «Abay» romanıdır. Tədqiqatın əsas obyekti isə romanda təsvirini tapmış XIX əsr qazax həyatı və onun panoramlı ifadəsi, epik vüsətli əsərdəki məqsədli şəkildə ifadə olunmuş təfərrüat və əyaniliyi, epizodların, surətlərin bədii təsir gücünü artıran detal problemi, onların qarşılıqlı əlaqələri, romanın bədii sistemindəki yeri və rolu olmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Əsas məqsədi XX əsr qazax ədəbiyyatının görkəmli nümayəndəsi M.Auezovun «Abay» romanının sənətkarlıq məziyyətlərindən biri olan təfərrüat və bədii detal problemini araşdırmaq olan dissertasiyada qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

– təfərrüat və bədii detal probleminin ortaq və fərqli cəhətlərinin, bir-biri ilə qarşılıqlı əlaqələrinin epik növdə, xüsusən də epik vüsətli romanda ümumi planda araşdırılması;

---

[1]Адибаев М.Х. О поэтике повестей и рассказов М.О.Ауэзова двадцатх годов: Автореф. Дис. канд. филолог. наук. Алма-Ата, 1984. 26 с.; Анастасьев Н.А. Трагедия триумфатора: Мухтар Ауэзов-судьба и книги. Алматы: Атамура, 2007, 504 с.; Жаксылыков А.Ж. Проза М.Ауэзова 20-х и 30-х годов (психологизм, конфликт, повествовательные формы). 1984, Алма-Ата, 170 с.; Кененов Ш.А.А. Проблема характера исторической личности в эпопее М.Ауэзова «Путь Абая». Дис. канд. филол. наук. Алма-Ата: КазПИ имени Абая, 1986.

[2]Canquzin R. Qazax xalqının böyük oğlu. «Ulduz» jurnalı. 1987, №11, 29-31 s.; Əliyev Q. Qazax xalqının iftixarı. «Ulduz» jurnalı, 1977, №9, 49-51 s.; Əliyev Q. Qazax xalqının böyük oğlu. «Azərbaycan», 1977, №10, 154-157 s.; Xəlilov P. Qazax ədəbiyyatının banisi. «Ədəbiyyat və incəsənət» qəz., 1954, sentyabr; İbrahimov M. Xalqın böyük sənətkarı. «Ədəbiyyat və incəsənət» qəz., 1977, 24 sentyabr; Məmmədov C., Gözəlov İ. «Abay» romanının tərcüməsi haqqında. «Kommunist» qəz., 1955, 2 iyul; Razi H. Görkəmli yazıçı və alim. «Şərq qapısı» qəz., 1977, 30 sentyabr; Rza Xəlil. Bədii söz nəhəngi. «Kommunist» qəz., 1977, 28 sentyabr; Rza Xəlil. Bədii söz nəhəngi. «Kommunist» qəz., 1977, 28 sentyabr

[3]Мамедов Н. Методическое пособие по курсу казахская литература (для студентов педогогических вузов). Баку, 1993, 67 с.

– təfərrüat və detalın konkret (məsələn, Abay, Kunanbay, Aykərim və s.) və ümumiləşdirilmiş obrazların (məsələn, xalq) yaradılması prosesində onların zahiri görkəminin və daxili aləminin təsvirindəki rolunun təhlili;

– təfərrüat və detalın etnik-milli təfəkkürlə və həyatla bağlılığının müəyyənləşdirilməsi, romandakı xalq obrazının və ayrı-ayrı surətlərin milli özünəməxsusluqlarının tədqiqi;

– epik vüsətin yaradılmasında təfərrüatla yanaşı, bədii detalın estetik funksiyasının müəyyənləşdirilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya Azərbaycan ədəbiyyatşünaslığında M.Auezov haqqında, o cümlədən onun nəsrinin, xüsusən də «Abay» romanına və onun sənətkarlıq özünəməxsusluğunun - poetik detal və təfərrüat problemlərinin araşdırılmasına həsr olunmuş ilk tədqiqatdır.

Dissertasiyada təfərrüat və detal probleminin elmi-nəzəri fikirdə müəyyənləşdirilmiş bütün təzahür formaları təhlilə cəlb edilməmişdir, burada ilk növbədə romanın özünəməxsus ideya-məzmun xüsusiyyətlərinə uyğun formalar araşdırılmışdır. Bu məqsədlə təhkiyənin təşkilində detal, təfərrüat və detalın milli həyat və təfəkkürlə bağlılığı, onların obrazların zahiri portretindən daha çox, mənəvi aləmini, psixoloji yaşantılarını işıqlandırması, epik vüsətin yaradılmasında rolları, əsas qəhrəmanların, epizodik surətlərin səciyyəvi cəhətlərinin hərtərəfli şəkildə təsvir olunması və s. məsələlərə xüsusi diqqət yetirilmişdir.

Onu da qeyd etmək lazımdır ki, epik növdə təfərrüat və detal, onların müxtəlif təzahür formaları problemi Azərbaycan ədəbiyyatşünaslığında Ə.Hüseynovun və K.Vəliyevin, A.Məmmədovun araşdırmaları istisna olmaqla, M.Auezovun “Abay” romanı müstəvisində sistemli şəkildə ilk dəfə araşdırılmışdır. Eyni zamanda materialın həm nəzəri, həm də praktik kontekstdə nəzərdən keçirilməsi də tədqiqat işinin elmi yeniliklərindəndir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** «Muxtar Auezovun «Abay» romanında epik vüsət və bədii detal» mövzusunda hazırlanmış dissertasiya işində müqayisəli təhlil metodundan istifadə olunmuşdur. Problemin nəzərdə tutulan səviyyədə araşdırılması məqsədi ilə tarixi-müqayisəli metoda söykənilməklə bu sahədə tədqiqatlar aparan qazax, Azərbaycan və dünya ədəbiyyatşünaslarının nəzəri fikirlərinə istinad olunmuşdur.

**Tədqiqatın nəzəri-praktik əhəmiyyəti.** Muxtar Auezovun “Abay” romanının real həyat, təfərrüat və detal problemi aspektindən araşdırılmasının nəzəri və təcrübi əhəmiyyəti vardır. Görkəmli yazıçı etnik mənşə baxımından türkdür, onun əsərləri ilə XX əsrin 60-cı illərinə qədərki Azərbaycan sənətkarlarının yaradıcılıq axtarışları arasında həm genetik, həm də tipoloji baxımdan yaxınlıqlar mövcuddur. Deməli, bütün bunları

nəzərə almaqla deyə bilərik ki, dissertasiya işi həm ilk növbədə qazax ədəbiyyatının, Abayın və Muxtar Auezovun həyat və yaradıcılığının, türk xalqlarının ədəbiyyatının öyrənilməsində, həm də Azərbaycan-qazax qarşılıqlı ədəbi-mədəni əlaqələrinin araşdırılmasında əhəmiyyət kəsb edə bilər. Bununla yanaşı, sadalanan problemlərin nəsr əsərlərində araşdırılması işində də dissertasiyadan yararlanmaq mümkündür.

Dissertasiyadan ali məktəblərin humanitar sahələri üçün türk xalqları ədəbiyyatı üzrə yeni dərsliklərin yazılmasında, XX əsr türk nəsrinin araşdırılmasında, xüsusi seminar və kursların aparılmasında istifadə oluna bilər.

**İşin aprobasiyası.** Dissertasiya AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəa və nəticələri müəllifin bir sıra beynəlxalq və respublika miqyaslı elmi-praktik konfranslardakı çıxışlarında, eləcə də müxtəlif elmi məcmuələrdə dərc edilən məqalələrdə əksini tapmışdır.

**İşin strukturu və həcmi.** Dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **«Giriş»**ində mövzunun aktuallığı, tədqiqatın obyekti, məqsəd və vəzifələri, nəzəri əsası və metodologiyası müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, elmi-praktiki əhəmiyyəti aydınlaşdırılır.

Dissertasiyanın birinci fəsli **«Abay» romanında bədii təfərrüat epik vüsət vasitəsi kimi»** adlanır. Bu fəsil üç bölmədən ibarətdir. **«Məsələnin qoyuluşu və təfərrüatın müxtəlif təzahür formaları»** adlanan birinci bölmədə göstərilir ki, Muxtar Auezovun yaradıcılığında «Abay» romanı əsas yer tutur və bu, qazax ədəbiyyatında roman janrının ilk kamil nümunəsidir. Düzdür, buna qədər bu janrda ilk nümunələr meydana gəlmişdir. Onların sırasında milli folklorun epik növünün əsasında formalaşaraq inkişaf edən qazax nəsrinin əsas yaradıcıları M.Dulatovun, C.Aymautovun, Şəkərimin, S.Torayqırovun, S.Kobeyevin, B.Maylinin, S.Seyfulinin və b. adlarını çəkə bilərik. Lakin tarixə qısa müddət ərzində «eposdan epopeyaya»[1] keçən bu əsərlər heç də epik növün və roman janrının qayda-qanunlarına tam olaraq cavab vermirdi. Qazax tədqiqatçısı S.Kıyrabayev bu tipli əsərləri «nəzmlə nəsrin qarışdığı, təsvirlərin az

[1] Бисенгалиев З.Г. Становление казахской прозы начала XX века (дооктябрьский период). Автореферат. Дис. канд. филолог. наук. Алма-Ата, 1983, 186 с.

olduğu, bəlli bir mövzunu əsas götürən və bəlli bir çalışma üzərində qurulan klişə»[1] əsərlər kimi qiymətləndirmişdir.

«Abay» romanı yüksək sənətkarlıq keyfiyyəti ilə seçilən əsərdir. Yazıçı bir sıra sənətkarlıq vasitələrindən və piryomlarından istifadə edərək əsərdəki hər bir obraz və hadisəni böyük ustalıqla qələmə almışdır. Əsərin təsirli, real alınmasında poetik detal və təfərrüatın yeri əvəzedilməzdir. Təfərrüat («təfsilat, xırdalıqlar») ərəb sözüdür[2] ki, bu söz dilimizdə mətləbin xırdalanması anlamına gəlir. Detal sözü isə texniki termin kimi yaranıb, sonradan məna çaları qazanmasının sayəsində ədəbiyyata da tətbiq olunaraq mətləbin, hadisənin kiçik bir hissəsi mənasında işlənmişdir.

Bədii əsərdə təfərrüatla detal bir-biri ilə qarşılıqlı əlaqədədir, biri digərinin işlənməsini tələb edir. «Bədii detalla təfərrüatı həmişə üz-üzə qoymaq olmaz. Çünki detal çox vaxt elə təfərrüatdır. Detal təfərrüatın elə bir hissəsidir ki, onun vasitəsilə bədii təsvir daha da konkretləşir, kino termini ilə desək, ümumi fonun ayrıca bir hissəsini geniş planda qabarıqlaşdırır. O yerdə ki detal təfərrüatın bir ilməsidir, onları qarşılaşdırmaq olmaz. Əksinə, həmin epizodda bədii detalın təfərrüatı əks etdirmək istiqamətindəki rolu açılmalıdır»[3].

Təfərrüat və detal hər bir bədii əsərdə bu və ya digər dərəcədə iştirak edir. Tərəflərdən hansına üstünlük verilməsi isə ilk növbədə əsərin növündən, janrından, yazıçının məqsəd və məramından asılıdır. Qarşılıqlı əlaqədə olan detal və təfərrüatın müxtəlif ifadə vasitələrindən son dərəcə yararlanan Muxtar Auezov bununla yalnız əsərinin bədii dəyərinin artırılmasına çalışmamış, həm də epopeyanın baş qəhrəmanının mövcudluğunun məntiqinə uyğun hərəkət etmişdir.

Əsərdəki surətləri və hadisələri daha canlı təsvir etməkdə təfərrüat kimi bədii detalın da mühüm əhəmiyyəti vardır. Bədii detalın uğuru ilk növbədə onun lakonizmi və konkretliyi ilə bağlıdır. «Lakonizmi və konkretliyi ilə»[4] seçilən «detalın mənası və gücü sonsuz kiçikləri bütövdə birləşdirməsidir»[5]. «Abay» romanında təfərrüata xüsusi diqqət yetirildiyi üçün əksər hallarda ən səciyyəvi və uğurlu detal da bəzən bütün özünəməxsusluğu ilə nəzərə çarpmır. Romanda təfərrüatdan ən çox

---

[1] Kıyrabayev S. Turk Dunyası Edebiyat Tarihi, Turk Dunyası Ortak Edebiyatı, AKMB Yay., C. 9, Ankara, 2007, 560 s.

[2] Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. 2 cilddə, II cild, Bakı: «Şərq-Qərb», 2005, 472 s.

[3] Vəliyev K. Sözün sehri. Bakı: Yazıçı, 1986, 303 s.

[4] Чудаков А.П. Поэтика Чехова. М., Наука, 1971, 292 с.

[5] Добин Е.С. Сюжет и действительность. Ленинград: Советский писатель, 1981, 432 с.

aşağıdakı məqamlarda istifadə olunmuşdur: obrazı və hadisəni səciyyələndirmək, əsərdəki əsas və bəzən də ikinci dərəcəli personajların psixoloji yaşantılarını ifadə etmək, hadisələrin gedişini təsvir edən hekayəçinin mövqeyini ifadə və s.

Hər bir əsərdəki bir çox bədii təsvir və ifadə vasitələri, o cümlədən epik növdəki əsərlərdə təfərrüat və detal həm də milli-etnik həyatı və düşüncəni bu və ya digər dərəcədə əks etdirmək imkanlarından biridir. Müxtəlif xalqların nümayəndələrinin iştirak etdikləri əsərlərdə müəllif, adətən, onların obrazlarını yaradarkən milli koloriti ortaya qoymağa qadir detal və təfərrüatlardan istifadə edir. Bunların bariz nümunəsini biz Muxtar Auezovun «Abay» romanında görə bilirik.

Bütün hallarda – əsərdə hansı bədii-estetik funksiyanı yerinə yetirməsindən asılı olmayaraq təfərrüatla detal qarşılıqlı əlaqədədir. Deyildiyi kimi, onlar bir-birini tələb edir, tamamlayır və dolğunlaşdırır. Təfərrüat xırdalıqların təsviri əsasında nəzərdə tutulan mətləb və ya problem, obraz və ya ideya haqqında panoramlı təsvir yaradırsa, deməli, detal onların içindən seçilməklə təsviri konkretləşdirir. Rəmzi məna qazanmış ənənəvi detallar istisna olmaqla, digər detallar hətta təfərrüatla bir yerdə işlənməsə belə, onlar təfərrüatın nəzərə alınmasını labüd edir.

Sənətkarlıq vasitəsi kimi təfərrüatla detal bədii əsərdə informativ, xarakterik, emosional, yumoristik-satirik, rəmzi, sırf etnik-milli və s. məna tutumunda çıxış edə bilir. Hansı məna tutumunda çıxış etməsindən asılı olmayaraq, təfərrüat və detalın əsas vəzifələrindən biri də ilk növbədə yaradıcı şəxsiyyət kimi müəllifin susduğu məqamlarda danışmaq bacarığının olmasıdır. Subyektiv təsir bağışlaya biləcək müəllif və ya obraz təqdimatından və dəyərləndirməsindən fərqli olaraq, təfərrüat və detalın oyatdığı təəssürat obyektivlik inamı yaradır. Ən vacibi isə bundan ibarətdir ki, bu zaman oxucunun özü təsvirini tapan həyatın içinə düşür və hər hansı nəticə çıxartmaq daha çox onun özündən asılı olur.

Müəllif təfərrüatdan və detaldan ən çox Abayın xarakterinin açılması üçün istifadə etmişdir. Romanda təfərrüatın və detalın surətlərin, hadisələrin, bir qədər əvvəldə dediyimiz kimi, əvəzinə də danışmaq kimi keyfiyyəti xüsusi nəzərə alınmışdır. Məsələn, Abay atası Kunanbayevin tapşırığı ilə Baydalının evinə gedir. Yazıçı burada Kunanbaydan narazı olan tayfa başçılarının incikliyini təsvir edərkən və Abayın keçirdiyi psixoloji vəziyyəti göstərərkən maraqlı təfərrüat və detaldan yararlanmışdır. "Alaçıqda sakitlik idi. Ocaq bərk alovlanırdı. Alovun uzun dilləri şor bişən böyük qazanın altını yalayırdı. Qatılaşmış ayran ağır-ağır qaynayıb köpüklənirdi. Baydalı danışır, Abay isə qazanda qaynayan

mayedən gözünü çəkmirdi… Son nöqtəyə çatdırılan həyəcan da bu cür qaynamırmı? Bu qaynayan qazan kimi o da bir yerdə coşmur. Qəzəb gah burada, gah orada aşkara çıxır. Budur, o qəzəb, Kulinşakın incikliyi, Suyundikin acı sözləri, Bojeyin nifrəti… İndi isə - Baydalı…”[1].

Böyük məhəbbət şairi Abay romanda iki aspektdə təsvir olunmuşdur: birincisi, həyatda sevən, aşiq Abay; ikincisi, sevgisi sayəsində məhəbbət mövzusunda əsərlər yazmaq ehtirasını cilovlaya bilməyən Abay. Hər iki halda yazıçı bədii təfərrüatlardan çox geniş şəkildə və yerində istifadə etmişdir. Romanın əvvəlki epizodlarında gənc Abay müxtəlif həyati situasiyalardan keçir: ağrı-acı görür, dərd görür, eyni zamanda təbiətin gözəlliyindən, yaxşı insanların varlığından şövqə gəlir. Bütün bunlar onun içindəki hissləri başqaları ilə bölüşməyə meyilləndirir. Başqa sözlə desək, Abayın daxilində yazıb-yaratmağa qarşısıalınmaz həvəs oyadır.

Romanda yazıçı təfərrüatların lirikliyini bir neçə yöndən işıqlandırmışdır: obrazların mövqeyindən, müəllif və ya hekayəçi obrazının mövqeyindən, əsas iştirakçıların, xüsusən də baş qəhrəmanın mənəvi yaşantılarının təsviri prosesində və s. Təfərrüatlı təsvir ön planda olan bu şərti qruplaşmanın hər birində liriklik obrazların konkret şəraitdəki ovqatının açıqlanmasına xidmət edir. Nəzərə alsaq ki, irihəcmli romanın əsas qəhrəmanı Abay olduğundan yazıçı əksər təfərrüatları ya birbaşa onun özü ilə bağlamış, ya da onun görüm bucağından işıqlandırmışdır.

Birinci fəslin **«Bədii təfərrüat etnik-milli obrazın milli mənsubiyyətinin təqdimat vasitəsi kimi»** adlanan ikinci bölməsində göstərilir ki, romanda etnik-milli adət-ənənələrə üstünlük verilməsinin əsas səbəbi romanın qəhrəmanı Abayla birbaşa bağlıdır. Bütün hallarda Abayla yanaşı, xalq romanın əsas qəhrəmanlarından biridir. Yazıçı onları bir-birinin içində təsvir etmişdir. Buna görə Abayın ömür yolunu, həyatından müəyyən fraqmentləri təsvir edərkən ədib ilk növbədə xalqın adət-ənənələrinə istinadı əsas götürmüşdür. Əsərin rus dilinə son və daha mükəmməl tərcüməsinin müəllifi Anatoli Kim maraqlı müşahidə apararaq yazır ki, «mahiyyəti etibarı ilə bu köçəri sivilizasiyası haqqında dünyada yeganə romandır. Yer kürəsində bu min illər davam edib, sonunda möhtəşəm romanda təcəssümünü tapıbdır. Qazax mentallığının bir hissəsinə çevrilmiş köçəri mədəniyyətini biz romanda tapa bilirik»[2].

---

[1] Auezov M. Abay. Bakı: 1954, 745 s.

[2] Шашкова Л. 110 летию Мухтара Ауэзова. «Отражение кочевой цивилизации» «Нива», казахстанский литературно художественный и общественно политический ежемесячный журнал, 2007, № 10, 114-124 с.

Romanda Kunanbay Syundikin və onun adamlarının qışlaqlarını əllərindən almaqla kifayətlənmir, rəqib kimi onları həddindən artıq zəiflətmək istəyir. Kunanbayın əlindən qan ağlayan və ondan intiqam almaq istəyən tayfa üzvləri barışığa yol qoymayan bir vasitəyə əl atırlar. Onlar min illər boyu həm də özlərinin dədə-babalarının riayət etdikləri qaydanı pozurlar - rəsmən göndərilmiş elçiləri döyürlər. Elçilərə onlar sadəcə olaraq qəzəbdən əl qaldırmırlar, bunu Kunanbayla düşmənçilik məqsədi ilə edirlər. Çünki onlar başa düşürlər ki, elçilərin döyülməsi elçi göndərən üçün ən böyük təhqirdir, özünə hörmət qoyan hər bir kəs bu təhqirə görə intiqam almaqdan çəkinməyəcəkdir. «Elçiyə zaval yoxdur» prinsipi burada məqsədli şəkildə pozulmuşdur.

Bojeyin və Kunanbayın adamları arasındakı döyüş sona çatır. Əks tərəf sakitləşmək bilmir, rəsmi dövlət təmsilçisi kimi Kunanbaydan yuxarı təşkilatlara dalbadal şikayətlər göndərirlər. Vəzifəsini itirməmək üçün Kunanbay Bojeyin adamları ilə barışmaq istəyir və hər cür barışıq şərti ilə razılaşır. Qarşı tərəf onun çıxılmaz vəziyyətə düşməsindən istifadə edərək Kunanbay üçün ən alçaldıcı şərt irəli sürür. «Hərgah siz müxtəlif tayfalardan olsaydınız, biz sizə qohum olmağı məsləhət görərdik. Ancaq siz qan qohumusunuz, bir-birinizə yaxın adamlarsınız. Bu yaxınlığınızı möhkəmlədin, biriniz öz uşağını o birinə versin. Qoy Bojey Kunanbayın uşağını götürsün, öz yanında tərbiyə etsin. Qoy bu uşaq vasitəsilə sizin ürəkləriniz barışsın».

Yas mərasimində mərhumun xatirinə yarış keçirilməsi, onun atlarının kəsilməsi və s. kimi adətlər xalq və Abay obrazını dərk etməkdə mühüm rol oynayır. Etnoqrafik əsər yaratmağı qarşısına məqsəd qoymayan, amma bədii əsərlərində həm də «bir etnoqraf, alim, tarixçi qabiliyyətini də»[1] göstərən müəllif romanda həm də xalq obrazını canlandırdığı və sevimli obrazını xalqla qarşılıqlı əlaqədə verdiyi üçün süjet xəttinin və hadisələrin gedişinin məntiqinə uyğun olaraq yas mərasiminin əhatəli təsvirinə də əsərində geniş yer ayırmışdır. Romanda müxtəlif mərasimlərlə bağlı təfərrüatlar əhəmiyyətli yer tutur. Bu təfərrüatların təsviri iki baxımdan xüsusi maraq doğurur. Birincisi, xalq obrazının hərtərəfli və dolğun özünəməxsusluqları haqqında incəliklərinə qədər təsəvvür yaratmaqdırsa, ikincisi, şair Abayın bədii irsindəki milli ruhun və koloritin mənbəyindən birini qabarıq təsvir etməkdir. Ədib xalq mərasimlərinin təsvirində obyektivliyə o dərəcədə əməl edibdir ki, bu gün xalqın bir çox adət-ənənələri

[1] Kutniyakova N.B. Muhtar Avezovun etnoqrafik mirası uzerine. «Bilig», Türk Dünyası Sosial Bilimler Dergisi, Sayı-6/ Yaz '97, 219-221 s.

roman əsasında araşdırılır.

Romanda Abayın həyatı şərti desək iki məkanda keçir. Birinci, məkan onun doğma aulu, eyni dindən və dildən olduğu, eyni adət-ənənələrlə yaşadığı insanların məskunlaşdığı qazax çölləridir. Bu məkan onun üçün doğmadır. Doğmalıq isə ilk növbədə bundan ibarətdir ki, bu məkanı dolduran qeyri-canlı nə varsa, hamısı Abaya tanışdır, burada yad, ona bəlli olmayan heç nə yoxdur. Əsər boyu doğma məkanda onu müəyyən epizodlarda bəzi mətləblərlə tanışlığını görmək mümkündür. Bu tanışlıq yadlığın naməlumluğu ilə tanışlıq deyil, ilk növbədə yaş bilməməzliyindən irəli gələn milli həyatın yeni özünəməxsusluqlarının öyrənilməsidir.

İkinci məkan isə yadların mövcud olduğu məkandır. Yad məkan əslində yad-mədəni-məişət realilərinin, bu məkana uyğun davranış normalarının olduğu bir məkandır. Romanda Abay şəhərdə təhsil alır və doğma aula qayıdır. Sadəcə olaraq nəzərə almaq lazım gəlir ki, Abay şəhərdə dini təhsil alır, yəni onun olduğu məkan doğma auldan yalnız formal tərəfləri ilə seçilir; milli mədəni-məişət isə bütövlükdə qorunub saxlanılır.

M.Auezov «Abay» romanında çoxsaylı müxtəlif obrazlar yaratmışdır. Bu obrazlar yalnız qazaxlardan ibarət deyil, onların arasında başqa xalqların nümayəndələri, o cümlədən ruslar da vardır. Yazıçı başqa xalqın nümayəndələrinin obrazlarını yaradarkən iki tərəfi vəhdətdə götürmüşdür - onları qazaxların, qazaxları isə onların nəzərləri ilə səciyyələndirmiş və bunun üçün maraqlı, koloritli bədii təfərrüatlardan və detallardan istifadə etmişdir.

Birinci fəslin üçüncü bölməsi **«Təhkiyənin təşkilində bədii təfərrüat»** adlanır. Nəsr əsərində, xüsusən də epik vüsətli povest və romanlarda detal və təfərrüatdan danışarkən onları əsərin bədii dünyasında mənalandırmağa çalışan sənətkarın mövqeyini nəzərə almamaq mümkün deyildir. Nə dərəcədə gizlədilməsindən, necə ifadə edilməsindən asılı olmayaraq, istənilən bədii əsərdə müəllif mövqeyi özünün ifadəsini tapır. Sənətkar mövqeyinin ifadəsinin vasitələri çox və zəngindir. Belə vasitələrdən biri də, heç şübhəsiz, detal və təfərrüatdır. Bədii əsərin bütövlüyünü təşkil edən və sözlə ifadə olunan bütün vasitələr bu və ya digər dərəcədə sənətkarın mövqeyini bildirir.

Əsərdə bir-biri ilə qarşılıqlı əlaqədə olan və biri digərini tamamlayan iki obraz vardır: Abay və xalq. Romandakı bütün hadisələr bu iki obrazla əlaqəlidir və bunların dolğun, hərtərəfli və koloritli təsvirinə səfərbər edilmişdir.

Xalq-Abay və Abay-xalq cütlüyünün qarşılıqlı əlaqələrinin və şairin

həyatının kiçik yaşlarından müdriklik çağlarına qədər təsviri istər-istəməz təfərrüatlara geniş yer verilməsini qaçılmazlaşdırmışdır. Yazıçı Abayın portretini yaradarkən, onun mənəvi dünyasındakı psixoloji yaşantıları təsvir edərkən detallara nə qədər üstünlük vermişdirsə, xalq obrazını canlandırarkən təfərrüatlara bir o qədər xüsusi meyil göstərmişdir. Çünki xalqın obrazını onun həyat tərzini, adət-ənənələrini və s. təsvir etmədən canlandırmaq mümkün deyildir.

Təfərrüatlar və detallar yazıçının sənətkarlıq məharətinin göstəricisi kimi diqqəti cəlb edir. Müəllif konkret bir epizodda bəzən təfərrüatdan və ya detaldan elə sənətkarlıqla istifadə etmişdir ki, onun çoxfunksiyalılığı açıq-aşkar nəzərə çarpır və əsərin bədii dəyərini daha da artırır.

Romanda Abay-xalq cütlüyünə qarşı duran qüvvələr də təsvir olunmuşdur. Müəllif romanın heç bir epizodunda bu qüvvələrin hərəkətinə, əməlinə və ya düşüncələrinə müdaxilə etmir, onları yaxşı, yaxud pis mənada qiymətləndirmir. Əslində M.Auezov bu zaman sənətin qızıl qaydasına əməl edir: nəticə çıxarmaq məsuliyyəti oxucunun öhdəsinə buraxılır. Oxucunun isə düzgün, məhz yazıçının nəzərdə tutduğu nəticənin çıxartması üçün sənətkar təfərrüatın və bədii detalın təsir gücündən istifadə etmişdir. Rus yazıçısı S.Antonov demişkən, «detal ağıla və ürəyə daha çox şey verməyə qadirdir» çünki «detal oxucuya güclü təsir göstərən vasitədir. Yerində düzgün işlədilmiş detal oxucunun düşüncəsində bir çox assosiasiyalar oyadır»[1].

«Şekspir miqyası və dərinliyi ilə yaradılmış»[2] Kunanbay müqəddəs dini ziyarətə gedir, məscid tikdirir, oğluna mükəmməl təhsil vermək istəyir (doğrudur, əsərdə atanın Abayın rus dilini öyrənməsinə imkan yaratmaqda məqsədinin çar məmurları ilə daha yaxşı ünsiyyət qurmaq olduğu vurğulanmışdır. Amma bu, sovet siyasi-ideoloji tələblərinə zahirən əməl olunduğunu göstərmək cəhdi idi. Digər tərəfdən, hətta Kunanbayı bu məqsədə düşməsinin özündə də qeyri-adi, onu mənfi bir insan kimi səciyyələndirəcək heç nə yoxdur).

Romanda Kunanbay obrazı nə qədər siyasiləşdirilsə də, möhtəşəm, qüdrətli və müəyyən qədər ziddiyyətli verilmişdir. Digər tərəfdən yazıçı Abay obrazını daha möhtəşəm təsvir etmək üçün onu məhz Kunanbay kimi güclü bir xarakterlə qarşılaşdırmalı və konfliktdə təsvir etməli idi.

Qan düşmənçiliyindən əsərdə Abay emosional, atası real danışır.

[1] Джемилева А.А. Специфика жанра и функция художественной детали в рассказе. www.nbuv.gov.ua/ Articles/KultNar

[2] Каратаев М. От домбры до книги. Москва: Советский писатель, 1969, 398 с.

Zahirən Abay bu zərərli adətin əleyhdarı, Kunanbay isə tərəfdarı kimi görünür. Əslində Kunanbay qan düşmənçiliyinin qarşısının alınmasına çalışır və bunun üçün həmin dövrdə mümkün olan ən təsirli və hamı tərəfindən qəbul edilmiş imkanı seçir. Maraqlı cəhətlərdən biri də budur ki, eyni bir hadisəni səciyyələndirən təfərrüat həm də üç obrazın: Abayın, Kunanbayın və Bojeyin mənəvi-əxlaqi siması haqqında təəssürat yaradır.

Abay başqa tayfaya girov kimi verilmiş Kamşata baş çəkməyə gedir. Yad yerdə qalan körpə uşağın çəkdiyi mənəvi sarsıntılara ona təhqiramiz yanaşmalar, alçaltmalar, ac-susuz qoymalar da əlavə olunmuşdur. Abay bunları gördükcə kövrək şair qəlbi ağrımağa və acımağa başlayır. Onu qonaq alaçığına aparırlar.

Abayın mövqeyindən verilən təfsilat əslində psixoloji və xarakterik səciyyə daşıyır. İlk növbədə onu deyək ki, bu epizoddan birmənalı şəkildə Abayın qan düşmənçiliyinin qarşısının alınması vasitəsi kimi uşaqların girov verilməsini qəbul etmədiyi aydın şəkildə görünür. Digər iki məsələnin mahiyyəti isə bundan ibarətdir ki, Abayın uşaq girovu məsələsinə münasibətini aydınlaşdıran təfərrüat eyni zamanda başqalarının da eyni problemə münasibəti haqqında təsəvvür yaradır.

Yazıçı obrazın mümkün ola biləcək subyektivliyinə obyektiv xarakter vermək üçün öz mövqeyini ifadə edən söz və cümlələrə istinad etməmişdir. Təfərrüatdan məlum olur ki, bu ailə çox pintidir, bunların yaşadığı məkanda səliqə-sahman yoxdur. Ailə başçısı olan qadın deyingəndir. Hətta onların qız uşaqları da anaları kimi pinti olmaqdan başqa, həm də olduqca sərtdirlər.

Təfərrüatdan aydın olur ki, belə bir ailədəki girov uşaq qətiyyən xoşbəxt ola bilməz, necə ki Kamşat xoşbəxt deyil. Əslində M.Auezov sənətinin gücü də məhz bundadır. Yazıçı heç bir epizodu, hadisəni, mövqeyi informativ yüklə məhdudlaşdırmamışdır, həm də bunların hər birinin psixoloji ovqat yaratmaq, obrazları səciyyələndirmək imkanlarından mümkün qədər yararlanmağı bacarmışdır. Abay psixoloji baxımdan sarsıntı keçirir. Alaçıqdakı qadın isə çox sakitdir, onda elə əminlik vardır ki, sanki olanların hamısı məhz elə-belə də olmalı idi. Bu obraz ailəsinə, yaşadığı məkana necə baxırsa, məişət əşyalarından biri kimi qiymətləndirdiyi uşağa da elə baxır.

Üç obrazın portreti xalq adətinin təfsilatlı təsviri ilə verilmişdir. M.Auezov dövrünün övladı kimi Abaya vurğunluğunu, Bojeyə hörmətini, Kunanbaya isə antipatiyasını zahirən gizlətmədiyini nümayiş etdirir. Təfərrüatların təsviri və qarşılaşdırılaraq müqayisə olunması isə yazıçının roman dünyasındakı mövqeyini bədii şəkildə ifadə edir. Bu və bu tipli

başqa epizodlardan məlum olur ki, mürəkkəb xarakteri, ziddiyyətli mənəvi aləmi, həm özünü, ailəsini, həm də rəhbərlik etdiyi el-obanı fikirləşməsi ilə Kunanbay zəif və güclü tərəfləri olan təbii və canlı bir insandır. Müəllif onu ideallaşdırmamışdır, mənfi planda təsvirinin ifratını mövqeyinin bədii təfərrüatın və detalın səciyyəvi ifadəsi ilə anlaşılmasına üstünlük vermişdir. Romandakı bədii təfərrüat və detalların böyük əksəriyyəti müəllif mövqeyinin birbaşa, açıq deyil, bədii formada təzahürünü şərtləndirmişdir.

Bütün hallarda M.Auezovun «Abay» romanında detalla birbaşa və qırılmaz əlaqədə olan təfərrüat yalnız epik vüsətə məntiqi və bədii-estetik zəmin hazırlamamışdır, eyni zamanda əsərdə müxtəlif obrazların xarakterinin, qazax xalqının özünəməxsusluqlarının, surətlərin mənəvi-əxlaqi dünyalarının və psixoloji yaşantılarının işıqlandırılmasında mühüm rol oynamışdır.

Dissertasiyanın **«Epik vüsət və bədii detalın özünəməxsusluğu»** adlanan ikinci fəsli üç bölümdən ibarətdir. **«Bədii detal epik vüsəti formalaşdıran vasitələrdən biri kimi»** adlanan birinci bölümdə qeyd olunur ki, romanda epik vüsəti şərtləndirən əsas vasitələrdən biri də bədii detallardır. Bəlli olduğu kimi, epik vüsətin mövcudluğunu əsasən təfərrüat təmin edir. Detal təfərrüatın bir məqamının daha da qabardılması olduğundan, hətta, təfərrüat olmayanda da detalı onun tərkib hissəsi kimi düşünmək mümkündür (sabitləşmiş və artıq simvollaşmış detal istisna təşkil edir, çünki onların təfərrüatla əlaqələri fərqli şəkildə təzahürünü tapır).

M.Auezovun «Abay» romanında təfərrüata nə qədər geniş yer verilibdirsə, bədii detallara da bir o qədər diqqət yetirilibdir. «Müəllif ideyasının məna fokusu, kondensatoru, əsərin leytmotivi» [1] olan detal yazıçının sənətkarlıq gücünü göstərməklə yanaşı, romanın ideyasının, obrazların özünəməxsusluqlarının, onların hekayəçinin təsvirinə düşməyən mənəvi-psixoloji yaşantılarının bədii cəhətdən təsirli ifadəsinə yardım göstərmişdir.

M.Auezovun romanında detal müəllifin üslubunun fərdiliyini, bənzərsizliyini, göstərən əsas bədii-estetik komponentlərdən biridir. Yazıçı orijinal, koloritli detallardan yararlanmaqla romanda məna və ideya dolğunluğuna nail olmuşdur. Bütün bunlar bir tərəfdən detalın özünün təbiətindən irəli gəlirsə, digər tərəfdən də sənətkarın detal yaratmaq sənətkarlığının nəticəsi kimi ortaya çıxır. Çünki «bir anlığa görünən»,

[1] Ветохина В.В. Деталь в рассказах А.П. Чехова // Вестник ВГУ. Серия: Филология. Журналистика. 2004, №2, 26-27 с.

amma onu bütün ömrün boyu yadda saxladığın»[1] həqiqi detal «həyatın həyəcanını, təzəliyini, orijinallığını və gözlənilməzliyini verir. Yazıçının ruhundan keçən detal eyni zamanda həm adi və gözlənilməz, həm də çoxdan bilinən və sanki ilk dəfə kəşf olunan kimi görünür»[2].

M.Auezovun «Abay» romanında detal bütün əsər və əsərin ideya-məzmun miqyasında təzahür edir. «Abay» romanında detalın təsnifatını aparsaq deyə bilərik: birincisi, obrazı səciyyələndirmək; ikincisi, hadisəni səciyyələndirmək; üçüncüsü, psixoloji yaşantıları dinamik formada ifadə etmək; dördüncüsü, nitq prosesindən fərqli şəkildə təzahür edən əsl həqiqəti çatdırmaq və s. məqsədi ilə xüsusi diqqət mərkəzinə çəkilibdir. Detal adətən təfərrüatın içərisindən seçilərək götürülür. Kino termini ilə deyilsə, təfərrüat sanki ümumi planda təsvirdir, detal isə ümumi plandan konkret bir tərəfin məqsədli şəkildə qabardılmasıdır.

«Abay» romanı epik vüsətinə görə epopeya olduğu üçün əsərdə əsas obrazlarla yanaşı, çoxsaylı ikinci dərəcəli obrazlar da vardır. Müəllif əsas obraza, xüsusən də təbii ki, Abay obrazına ayrıca diqqət yetirmişdir. Sənətin gücü isə ilk növbədə ondadır ki, sənətkar qələmə aldığı obrazın iriliyinə-kiçikliyinə, birinci və ya ikinci dərəcəli olmasına və s. fikir vermir, onların da həyatının, taleyinin, insani cəhətlərinin təsvirinə eyni dərəcədə məsuliyyətlə və ciddi yanaşır. Bu baxımdan haqqında danışılan roman istisna təşkil etmir. Başqa sözlə desək, ədib əsərində Abay surətini yaradarkən istinad etdiyi sənətkarlıq vasitələrindən romanın digər obrazlarının təqdimində də yararlanmışdır. Buna əsasən demək olar ki, romanda yazıçı detallardan mümkün dərəcədə yaradıcı şəkildə istifadə etmək hesabına digər iştirakçıları da fərqli və özünəməxsus cizgiləri ilə oxuculara çatdıra bilmişdir.

**«Bədii detal və obrazların milliliyi»** adlanan ikinci bölümdə epik vüsətli romanda əsas obrazlardan biri xalq olduğu üçün surətlərin milliliyi ön plana çəkilmişdir. Yazıçı romanında milliliyin, xalq həyatının təsvirini verəndə detallardan müxtəlif formalarda yararlanmışdır. Ən ümumi şəkildə iki formanı qeyd etmək mümkündür: birincisi, Abayın milliliyinin təsvirində detallar; ikincisi, xalq obrazının təsvirində detallar. Bunlar isə bir-birlərini tamamlayırlar, çünki Abay xalqı, xalq Abayı təmsil edir.

Bütün qazaxlar kimi Abay da folklora, milli musiqiyə bağlı bir şəxsiyyət olmuşdur. Tarix boyu akınlar qazax həyatının ayrılmaz bir

---

[1] Курова К.С. Деталь и замысел // Сов. Казахстан. 1958, №3, 111-114 с.
[2] Антонов С.П. Я читаю рассказ. М.: Молодая гвардия, 1973, 255 с.

hissəsi kimi xalqın, millətin özünəməxsusluqlarının ən səciyyəvilərindən birinə çevrilmişdir. Romandan da göründüyü kimi, akın qazaxlar üçün həm şairdir, həm musiqiçidir, həm əyləncə təşkil edəndir, həm el ağsaqqalıdır, həm xalqın səsini aləmə yayan bir insandır və s. Deməli, uğurlu şəkildə seçilmiş akın detalı XIX əsr qazax həyatının özünəməxsusluğu haqqında əlavə sözə, şərhə ehtiyac olmadan dolğun təsəvvür oyadır. Buna görə görkəmli rus yazıçısı K.Paustovski vaxtilə haqlı olaraq yazırdı ki, «yaxşı detal uğurlu bir obrazla eyni sırada durur»[1].

Romanın «Yaylaqda» adlanan hissəsində qonaqlıq təsvir edilir. Qonaqlığa müxtəlif yerlərdən xanəndələr, akınlar dəvət olunurlar. Burada peşəkarlarla yanaşı, aulun bir çox üzvü, o cümlədən üç ay əvvəl toyu olmuş Aykərim də mahnı oxuyur. Epizodda mahnı bütün obrazların hamısının həyatının həmin anını bu və ya digər dərəcədə əhatə edir.

Yazıçı maraqlı bir yol seçmişdir. Təsvirini tapan mövcud cəmiyyətin bütün üzvlərinin (əslində bütövlükdə bütün qazax xalqının!) mahnıya və musiqiyə bağlılığını vermək üçün həm birbaşa məclis iştirakçılarının, həm də musiqi ilə yaxından ünsiyyətdə olmaq istəyən, amma buna imkan verilməyən insanların həyatından bir anı işıqlandırmışdır. Qozbel bir qarı musiqiyə qulaq asdıqca «başını yuxarı qaldıraraq çuxura düşmüş yaşaran gözlərini qıyır, solğun, qartmış üzündəki dərin qırışıqlar açılır, mahnını eşitdikcə üzü gülümsəyirdi».

«Epopeyanın həm də dramaturgiyasında musiqi, bizim fikrimizə görə, baş verən hadisələrin həqiqi mahiyyətini ifadə edərək hərtərəfli mövzu kimi, təhkiyənin hərəkətverici gücü kimi çıxış edərək əsas funksiyalardan birini yerinə yetirir. Və nəhayət, musiqi romanın iki dünyanın, iki stixiyanın qarşılaşdırılmasında əks olunan mərkəzi ideyasının açılmasında əsas iştirakçı simalardan biridir. Müəllif bir qütbə zorakılıq, düşmənçilik və gündəlik həyatın qəddarlığını, başqa qütbə isə təmizlik və işıq dünyasını, mahnı sənətinin dünyasını ön plana çəkmişdir»[2].

Romanda maraq doğuran cəhətlərdən biri Kunanbayın mahnıya münasibətidir. Məlum olduğu kimi, Kunanbay sərt, qəddar, amansız, hisslərə, duyğulara meyil və maraq göstərməyən bir insandır. Onun üçün həyatın mənası pul qazanmaqda və insanları idarə etməkdədir. Ərindən fərqli olaraq, Uljan emosional, musiqini duyan, mahnıdan zövq almağı bacaran

[1] Паустовский К. Поэзия прозы // О писательском труде. М., СП, 1953.
[2] Ордалиева Ж. Мир музыки в романе «Путь Абая». Наследия Мухтара. Алматы, «Казакстан», 1997, 299-311 с.

bir qadındır. Aykərimin mahnı oxumasını Uljan istədiyinə görə yox, Dildanın xətrinə qadağan edir.

Yazıçı xarakteri səciyyələndirmək üçün musiqi detalından maraqlı bir formada istifadə etmişdir. Aykərimin mahnısı, musiqisi və səsi Kunanbay kimi «payız» insana da təsir göstərir. Onun səsinin sehri o dərəcədə güclüdür ki, kişilər, hətta Abay da göz yaşlarını saxlaya bilmir. Bununla da yazıçı bir neçə məqsədini bədii formada ifadə etməyi bacarmışdır. Birincisi, yazıçı Abayın, Aykərimin, Dildanın, Kunanbayın mənəvi dünyası haqqında koloritli və obyektiv təsəvvür yaratmışdır. İkincisi, musiqinin insanlığını tam itirməmiş obrazlarda belə (məsələn, Kunanbayın nümunəsində) emosional ovqat yaratdığını inandırıcı şəkildə təsvir etmişdir. Üçüncüsü, ədib qazax xalqının tarixən mahnı və musiqini dərindən duyduğunu və bunları yaratdığını, nəticə etibarı ilə estetik zövqünün özünəməxsusluğunu əyani şəkildə göstərmişdir.

İslam dininə açıq-aşkar rəğbətini də, antipatiyasını da bildirməyən yazıçının dinə və din xadimlərinə münasibəti fərqlidir. Təbii ki, bu mövzunun təsvirində iki tərəf mövcuddur: birincisi, Abayın yaşadığı dövrdə din və din xadimləri, onlara münasibət; ikincisi, əsərin yazıldığı, yəni müəllifin yaşadığı dövrdə din və din xadimləri, onlara münasibət. Yazıçı bu tərəflər arasında mümkün qədər yaxınlığa cəhd göstərsə də, yaşadığı dövrün siyasi-ideoloji tələblərini müəyyən mənada nəzərə almaq məcburiyyətində qalmışdı. Bununla belə o, mümkün dərəcədə obyektivliyi qoruyub saxlamağa da çalışmışdır.

Kunanbayın məscid tikdirməsinə münasibət ikilidir. Romandan da göründüyü kimi, din xadimləri, imkanlı insanlar onun bu əməlini təqdir edirlər. İkinci münasibət isə Abayın münasibətidir. Dinə dərindən bələd olan Abay atasının məscid tikdirməsini hamının hörmət və izzətini qazanmağa cəhd kimi dəyərləndirmişdir. Qocalanda Kunanbay Məkkəyə ziyarətə getməyi planlaşdırır. Onun bu səfərinə hazırlıq, səfər ərəfəsində vida görüşləri, səfərdən qayıdandan sonrakı təəssüratlar romanda geniş təsvirini tapmışdır. Ailə də bu uzun səfərin narahatlığını yaşayır, hətta Makiş deyir: «Deyirlər, bizim ölkələrin adamlarından heç biri heç vaxt oralarda olmamışdır… O, qayıdıb gələ biləcəkmi?».

Əsərin «əşya aləminin ən kiçik vahidi»[1] detalın sayəsində: birincisi, keçmiş dövrdə yaşamış bayların heç də hamısının və həmişə pis olmadıqlarını vurğulamışdır. Başqa sözlə desək, yazıçı keçmişi

[1] Введение в литературоведение. Учебное пособие // Л.В.Чернец, В.Е.Хализев и др. // Под ред. Л.В.Чернец. М.: Высшая шк., 2004, 286-299 с.

ideallaşdırmadığı kimi, bütövlükdə mənfi planda işıqlandırmağın da əleyhinə olmuşdur. Bunu Kunanbaya münasibətdən də aydın görmək mümkündür. İkincisi, müəllif məscid tikintisini, Məkkə ziyarətini, Abayın mollalarla polemikasını verməsi dövr üçün zahirən təbliğatı xarakter daşıyırdı, amma arxasında həm də belə bir məna dururdu ki, qazax xalqının milli kimliyi həm də dini etiqad əsasında formalaşmışdır və islam dini demokratizminə, tolerantlığına və s. görə mövcud dünya dillərinin heç birindən geridə qalmır, buna görə də yaşamağa haqqı vardır.

**«Bədii detal və xarakterin açılmasında onun rolu»** adlanan sonuncu bölümdə bədii detalın obrazların psixoloji portretinin və mənəvi-əxlaqi dünyalarının özünəməxsusluqlarının ifadəsindəki rolu təhlilə cəlb edilmişdir. İnsan və onun həyatı, taleyi bədii təhlil mərkəzinə çəkilən əsərlərdə, o cümlədən «abidə əsər»də [1] - «Abay» romanında obraz yaradıcılığı üçün müxtəlif vasitələrdən istifadə olunur. L.Qinzburqun fikrinə görə isə «psixoloji təhlil müxtəlif vasitələrdən istifadə edir. Psixoloji təhlil birbaşa müəllif düşüncələri, yaxud qəhrəmanların özlərini təhlil, yaxud da dolayısı ilə onların müəllifin hazırlanmış oxucu tərəfindən analitik şəkildə yozulan jestlərinin, əməllərinin təsviri formasında gerçəkləşdirilir»[2].

Obraz yaradıcılığında detal bir çox funksiyanı yerinə yetirir. Onları iki formada götürmək mümkündür: obraz yaradıcılığında zahiri detal və obraz yaradıcılığında psixoloji detal. Amma bir məsələni bir daha vurğulamağa ehtiyac vardır. O da bundan ibarətdir ki, istənilən detal əsərdəki obrazlarla bu və ya digər dərəcədə bağlıdır. Başqa sözlə desək, hətta xarakterik tutumda çıxış edən zahiri detalların bir çoxu kontekstdə psixoloji yük daşıya bilər, yaxud da əksinə, psixoloji detal zahiri detala çevrilə bilər.

Romanın əsas qəhrəmanı Abay olduğundan əsərdə detalların böyük əksəriyyəti bu obrazın açıqlanmasına və səciyyələndirilməsinə tabe etdirilmişdir. Bu iki cəhət (birincisi, yaradıcılıq istedadının formalaşması, yəni şairliyə başlayana qədər ki Abay; ikincisi, bədii əsərlər yazıb-yaradan Abay) onun psixoloji yaşantılarının ifadəsi üçün istifadə olunan detallarda da özünü göstərir.

Birinci mərhələdə biz gələcək şair Abayın dünyagörüşünün, estetik zövqünün, yaradıcılıq səriştəsinin və s. formalaşmasında əhəmiyyətli rol oynayan faktorları görürük. İkinci mərhələdə isə artıq şair və şairliyini

---

[1] Kutniyakova N.B. Muxtar Avezovun etnoqrafik mirası uzerine. «Bilig», Türk Dünyası Sosial Bilimler Dergisi, Sayı-6/ Yaz '97, 219-221 s.

[2] Гинзбург Л. О психологической прозе. Л.: Худ. литература, 1977, 412 с.

etiraf edən (şairliyini etiraf edən ona görə deyirik ki, həmin dövrdə bəzi tayfalar, xüsusən də Abayın mənsub olduğu tayfa bədii yaradıcılıqla məşğul olan insanlara, o cümlədən akınlara pis baxırdılar) Abayın iç dünyası ilə tanış oluruq.

Əsərdə müəllifin obrazın daxili psixoloji vəziyyətini ifadə etmək üçün müraciət etdiyi formalardan biri də əşya detalıdır. Bu müəyyən bir hadisə, əşya ilə bağlı olaraq yaranır, qəhrəmanın hiss və duyğularının ifadəsinə çevrilərək yaddaşında daima yaşayır. Bunun nəticəsində «əşya-detal ictimai-sosial tutumla yanaşı, psixoloji tutumla yüklənmiş olur, əşya-detalın zahiri tərəfi - real mövcudluq forması və utilitar funksiyası əksər hallarda surətlərin mənəvi dünyası, insani keyfiyyətləri ilə bağlanır»[1].

M.Auezov, dediyimiz kimi, şablonların təsirini minimuma endirmək üçün sevimli obrazını imkan düşən bütün məqamlarda insani keyfiyyətləri ilə verməyə çalışmışdır. Romandan da bildiyimiz kimi, Toqjan sonradan iki dəfə ailə quran Abayın ilk sevgisidir. Bu sevginin bəxtiyarlığı, səadəti, ağrısı, əzabı və kədəri ömrünün sonuna qədər onun yol yoldaşı olur. Tədqiqatçı Z.Kedrin haqlı yazır ki, «Toqjan yalnız məhəbbət obrazıdır»[2]. Hətta ikinci Toqjan adlandırdığı Aykərimi sevməsi və onunla ailə qurması da ilk eşqini unutdura bilmir. Yazıçı Abayı ideallaşdırmamış, nümunəvi ailə başçısı kimi təqdim etməmişdir, əksinə onu sevən, sevilmək eşqi ilə yaşayan, gözəllərdən və gözəllikdən zövq almağı bacaran bir insan obrazında vermişdir.

Abay Aykərimi sevir, amma içindəki hissləri boğmağı bacarsa da, Səltənətə də vurulur. Səltənət ictimai rəyi nəzərə almasaydı, bəlkə də Abay ona eşq elan edərdi. Abay və dostları ovdan qayıdanda qara, çovğuna düşürlər. Qayıdış vaxtı elə təhlükəli vəziyyət yaranır ki, Abay hətta ölüm barədə fikirləşməyə başlayır.

Sonun gəldiyini düşünən bir insanın mənəvi düşüncələrində iki cəhət diqqəti cəlb edir: birincisi, o, əbədi itirdiklərini - Zərini (dünyasını dəyişibdir) və Toqjanı (əbədi itiribdir) fikirləşir. Maraqlıdır ki, onların hər ikisi Abayın şəxsiyyət və yaradıcı insan kimi formalaşmasında mühüm rol oynayıblar. Zəri nənə onda musiqiyə, zəngin xalq ədəbiyyatına, insanlara vurğunluq təlqin edibdir. Toqjan isə ilk eşqinin ünvanı kimi onda yaratmağa, içində qaynayan duyğuları sözə və musiqiyə çevirməyə stimul

---

[1] Əmrahoğlu A. Epik sözün bədii gücü. Bakı: Elm, 2000, 212 s.

[2] Кедрина З. Творческий подвиг Мухтара Ауэзова. М.Ауэзов. Собрание сочинений в пяти томах, том 1, Москва, «Художественная литература», 1973, 5-30 с.

veribdir.

Abayın sonunun gəldiyini güman etdiyi məqamda Aykərimi yox, Toqjanı fikirləşməsi sevərək ailə qurduğu həyat yoldaşına xəyanət deyildir, unuda bilmədiyi və unutmaq istəmədiyi ilk sevgisinə sədaqətdir. Maraqlı cəhət burasıdır ki, Abay bütün roman boyu Aykərimi Toqjana oxşadır və bu oxşarlığa görə ona vurulur. Nümunə verilən epizodda onun yenidən və sonuncu dəfə (ölümün gəldiyini güman etdiyi üçün) Toqjanı xatırlaması bir daha təsdiqləyir ki, Abay ömrü boyu yalnız bir dəfə sevibdir: Toqjan onun ilk və son eşqi olubdur.

Romanda «xalqın müəllimi» olan Abay və digər obrazlar hərtərəfli, dolğun, canlı və koloritli təsvir edilibdir. Əsərdə Abayla əlaqəsi olmayan obraz yaradılmayıbdır. Buna baxmayaraq yazıçı hər bir obrazı Abay surəti kimi fərdiləşdirməyi bacarmışdır. Buna isə o, ilk növbədə müxtəlif bədii-estetik prinsiplərin, o cümlədən bədii detalın imkanlarından son dərəcə yaralanmaqla nail olmuşdur. Roman maraqlı, orijinal, tutumlu və çoxmənalı detallarla zəngindir.

Sovet dövründə qələmə alınmış romanda yalnız M.Auezov kimi qüdrətli söz ustası finalda detalları simvollaşdırmaqla müxtəlif mənalarda yozulması mümkün olan mülahizələr irəli sürə bilərdi. Romanın sonunda tənha səhranı seyr edən Abay yaşadığı ömrü fikirləşir: həyat adlanan dənizdə tənha gəmi üzür. Yelkənlərində «mübarizə və ümid» yazılmış gəmi Gələcək adlanan limana doğru üzür. «Bu, geniş, düz, etibarlı yolu açan Abayın gəmisi idi».

«Abay» romanında bədii detalların gücü məhz bundadır: mətləbi, niyyəti, fikri, ideyanı, problemi qaldırmaq, hərtərəfli şəkildə işıqlandırmaq, şərhini, həlli yolunu göstərmədən oxucunu düşündürmək və onu potensial yaradıcıya çevirmək. M.Auezov sənətinin qüdrəti ilə epik vüsətli roman yazmaqla kifayətlənməmişdir, həm də vurğunluqla, sevinciylə yaratdığı qazax xalqının həyatının ən ağrılı və taleyüklü problemlərini mənalandırmışdır.

Dissertasiyanın **«Nəticə»** hissəsində M.Auezovun «Abay» romanında bədii təfərrüat və detalın səciyyəvi təzahür formaları ilə bağlı mülahizələr ümumiləşdirilmişdir.

M.Auzeov «Abay» romanında sözün poetik imkanlarından, o cümlədən bədii təfərrüatın və detalın çoxcəhətli, zəngin funksiyalarından son dərəcə səmərəli şəkildə yararlanmışdır. Əslində onun romanında təfərrüat və detal sənətkarlıq məharətinin göstəricisi olmaqla yanaşı, eyni zamanda mövcud məmur senzuranın diqqətindən yayınaraq sənətkar niyyətini müxtəlif yozumlara imkan yaradan bir vasitədir.

İstənilən nəsr əsərində müəllif niyyətindən, janrdan asılı olaraq bədii detal və təfərrüatın təzahür formalarından istifadə edilir. Hər iki bədii sənətkarlıq vasitəsi və prinsipi bir-biri ilə qarşılıqlı əlaqədədir. Təfərrüat detalların qabardılmadan ardıcıl şəkildə sadalanaraq təsvir edilməsidirsə, detal təfərrüatın içindən bir əşyanın, predmetin, jestin, mimikanın, nitqin, peyzajın və s. məqsədli şəkildə fərqləndirilməsi və qabardılmasıdır. Hətta tək bir detal öz-özlüyündə nəzərə çarpdırılmayan təfərrüatın mövcudluğuna işarədir, təfərrüat isə bütövlükdə potensial detallar toplusudur.

M.Auezov söz sənətinin bir qızıl qaydasına əməl etməyi yaradıcılıq kredosuna çevirməyi bacarmış sənətkarlardandır. Bu qızıl qaydanın mahiyyəti isə bundan ibarətdir ki, müəllif özü susmağı, əvəzində obrazların özünü, onların geyimini, evini, evindəki əşyaları, peyzajı, interyeri, jesti, mimikanı, fərdi nitqi və s., yəni təfərrüatı və detalı danışdırmağı bacarmışdır.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin aşağıdakı əsərlərində əksini tapmışdır:**


1. Muxtar Auezovun «Abay» romanında detal və təfərrüatın qarşılıqlı əlaqəsi, Filologiya məsələləri N7, Bakı-2008, səh. 322-327
2. Obrazların mənəvi aləmi və təfərrüat (M.Auezovun «Abay» romanı əsasında). AMEA aspirantlarının elmi konfransı, iyun, 2009-cu il, səh. 577-580
3. Obraz təhkiyəsində bədii təfərrüat (M.Auezovun «Abay» romanı əsasında). Humanitar elmlərin öyrənilməsinin aktual problemləri – 2010/4, səh. 127-131
4. Bədii detal milli koloritin ifadə vasitəsi kimi (M.Auezovun «Abay» romanı əsasında). BDU, Dil və ədəbiyyat (Beynəlxalq elmi-nəzəri jurnal), 5(76), Bakı-2010, səh. 231-233
5. M.Auezovun «Abay» romanında bədii təfərrüat və obraz yaradıcılığı. Doktorantların və gənc tədqiqatçıların XV Respublika elmi konfransı. Bakı-2011, səh. 93-95
6. Detal və təfərrüat obrazın milli mənsubiyyətinin təqdimat vasitəsi kimi (M.Auezovun «Abay» romanı əsasında). AMEA-nın Şərqşünaslıq İnstitutunun «Müasir şərqşünaslığın aktual problemləri» mövzusunda Beynəlxalq elmi konfransın materialları, 1-2 iyun 2011-ci il, səh. 189
7. M.Auezovun «Abay» romanında təfərrüat milli koloritin ifadə vasitəsi kimi. Abbas Zamanovun 100illik yubileyinə həsr olunmuş

"Müasir Azərbaycan filologiyası: axtarışlar, problemlər, perspektivlər" mövzusunda Respublika elmi konfransının materialları, noyabr, 2011-ci il, səh. 560-565
8. Mukhtar Auezov′un «Abay» romanında milli gelenek, göreneklerin geniş ve ayrıntılı şekilde tasviri. «Çıngı» Kültür Sanat Edebiyat dergisi. Yıl:2 Sayı:7 Mayıs/Hazıran 2011, səh. 26-29
9. Təfərrüatın müxtəlif təzahür formaları (M.Auezovun «Abay» romanı əsasında). Türk xalqları ədəbiyyatı (məqalələr, 4-cü toplu), «Elm və təhsil», Bakı-2012, səh. 127-130
10. Muxtar Auezovun «Abay» romanında psixoloji detal. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri – 2013/4, səh. 156-159
11. M.Auezov və «Manas» dastanı. Türk xalqları ədəbiyyatı (məqalələr, 5-ci toplu), «Elm və təhsil», Bakı-2013, səh. 103-108
12. Epik növdə detal, təfərrüat və sənətkar mövqeyi (M.Auezovun «Abay» romanı əsasında). Filologiya məsələləri, N8, «Elm və təhsil», Bakı-2013, səh. 424-429
13. Muxtar Auezov Azərbaycan ədəbiyyatşünaslığında. «Ədəbiyyat məcmuəsi», AMEA Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri. Xüsusi buraxılış, XXV cild, Bakı-Elm-Təhsil-2014, səh. 317-323
14. Лиричность и подробность в прозе (на основе романа «Абай»). Казахский Национальный Университет имени Аль-Фараби, Вестник КазНУ 2(148). Серия филологическая. Алматы «Казак университети» 2014. səh. 182-187

**Туран Теймуров**

# Эпический масштаб и художественная деталь в романе Мухтара Ауэзова «Абай»

## РЕЗЮМЕ

Диссертация является первым монографическим исследованием в азербайджанском литературоведении, посвященном творчеству Мухтара Ауэзова, его самому известному роману «Абай», анализу проблемы эпичности и художественной детали в данном произведении.

Диссертация состоит из введения, двух глав, заключения и списка использованной литературы.

В первой главе под названием «Художественная подробность как средство эпической масштабности в романе «Абай» внимание уделяется постановке проблемы диалектической взаимосвязи подробности и художественная деталь, обуславливающих эпический размах в роман-эпопея, который рассмартриваться как способ изображения индивидуальных качеств образов, особенно их этнически-национальной принадлежности. Принимая во внимание то, что главный герой романа Абай – человек выразитель национального духа и то, что истинным главным героем произведения является народ, становится ясным, что в изображении этнически-национального своеобразия важное значение имеют именно подробности. В этой главе также исследуется проблема освещения художественной подробности с позиции героя или автора.

Вторая глава диссертации носит название «Своеобразие эпического размаха и художественной детали». Художественная деталь так же, как и подробность, своеобразно участвует в формировании эпического размаха. Соответствуя условиям, детали, создающие возможность для отчетливого изображения индивидуальных черт, национальной принадлежности и прочих качеств многочисленных образов, при молчании героев начинают «говорить», что еще более усиливай силу художественного влияния романа. Писатель с помощью характерных деталей смог талантливо изобразить тревоги, сотрясающие внутренний мир образов, в особенности Абая, их психологическое состояние.

В заключении диссертации обобщены выводы, связанные с характерными формами выражения художественной частности и

детали в романе М.Ауэзова «Абай».

**Turan Teymurov**

## The epic scope and the artistic detail in Muxtar Auezov's novel "Abai"

### SUMMARY

The thesis is the first monographic research in Azerbaijani literary criticism, which is devoted to M.Auezov's literary creativity, his masterpiece - the novel "Abai", the study of the problem of the epic scope and the artistic detail in the work.

The thesis consists of introduction, two chapters, conclusion and list of suggested literature.

The first chapter "The artistic specification as a means of the epic scale in the novel "Abai" focuses on the statement of the question – the interrelations between the specification and the artistic detail, and analyzes the specification, which preconditions the epic scope, as a means expressing individual human qualities of the images, especially their ethnic-national identity in a voluminous novel. When considering Abai, the character of the novel as an individual with a national spirit, and the people as a second major character, one can clearly notice that the specification is of great importance in the expression of the ethnicity and national identities. The chapter also investigates the problem of highlighting the specification from the stand of the image or the author.

The second chapter of the dissertation is called "The epic scope and the peculiarity of the artistic detail". Like specification, the artistic detail also takes part in the formation of the epic scope in its own way. The details, which allow the individual features of numerous images, their nationality, etc. to stand out under the circumstances, happen to increase the artistic efficiency of the novel further by "speaking", while the participants keep silent. The writer has succeeded in expressing incomparably the alarms of the images, especially of Abai in their inner world, their psychological experiences in specific details.

The conclusion of the thesis summarizes the considerations related to the specific manifestation forms of the artistic specification and detail in M.Auezov's novel "Abai".

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ им. НИЗАМИ**

На правах рукописи

**ТУРАН МОВЛУД оглу ТЕЙМУРОВ**

# ЭПИЧЕСКИЙ МАСШТАБ И ХУДОЖЕСТВЕННАЯ ДЕТАЛЬ В РОМАНЕ МУХТАРА АУЭЗОВА «АБАЙ»

5717.01 - Литература тюркских народов

А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание научной степени доктора философии по филологии**

**БАКУ - 2015**